SİYASƏT

# Beynəlxalq media qurumları 'ToplumTV işi' üzrə hökmü pisləyir

3 dəqiqə öncə




"ToplumTV" işi üzrə həbs olunanlar

Beynəlxalq jurnalist qurumları ToplumTV ilə əlaqəli jurnalistlər və media işçilərinə verilmiş uzunmüddətli həbs cəzalarını pisləyib.

Avropa Jurnalistlər Federasiyası (EFJ) və Beynəlxalq Jurnalistlər Federasiyası (IFJ) iyulun 27-də bununla bağlı bəyanat yayıblar. Bəyanatda deyilir ki, məhkəmənin qərarı bu prosesin siyasi xarakter daşıdığını, hakimiyyətin öz peşə fəaliyyətini yerinə yetirən jurnalistləri qorxutmaq və susdurmaq niyyəti güddüyünü təsdiqləyir. IFJ və EFJ haqsız yerə məhkum olunmuş media əməkdaşlarının dərhal azadlığa buraxılmasını tələb edir.

**"Bu son dərəcə qeyri-mütənasib cəzalardan sarsılmışıq. Bu hökmlər Azərbaycandakı cəsarətli səsləri susdurmağa yönəlmiş məhkəmə prosesinin sırf siyasi xarakter**

**daşıdığını bir daha təsdiqləyir"**, – EFJ-nin baş katibi **Rikardo Qutyerres** bildirib.

"Bu məhkəmə qərarı jurnalistlərə, o cümlədən qadın media əməkdaşlarına qarşı amansız repressiya siyasətinin tərkib hissəsidir. Bunun ədalətlə heç bir əlaqəsi yoxdur. Bu, sadəcə, hökumətin repressiyası və qorxutma siyasətidir. Bu ədalətsiz məhkəmə prosesində payı olanlar gələcəkdə məhkəmə qarşısında cavab verəcəklər", – IFJ-nin baş katibi **Entoni Bellancer** əlavə edib.

## Xatırlatma

İyulun 27-də Bakı Ağır Cinayətlər Məhkəməsində "ToplumTV işi" üzrə həbsdə olan doqquz jurnalist və ictimai-siyasi fəala ümumilikdə 121 il həbs cəzası verilib. III Respublika Platformasının spikeri Akif Qurbanov və qurucu heyət üzvü Ruslan İzzətlinin hər biri 15 il, ToplumTV-nin təsisçisi Ələsgər Məmmədli və jurnalist Əli Zeynalovun hər biri 14 il azadlıqdan məhrum edilib. Redaktor Müşfiq Cabbarov, fəallar Ramil Babayev və İlkin Əmrahovun hərəsinə 13 il, jurnalistlər Fərid İsmayılov və Elmir Abbasova isə 12 il həbs cəzası kəsilib.

Jurnalist və fəalların heç biri ittihamları qəbul etmir, peşə fəaliyyətlərinə görə siyasi sifarişlə həbs olunduqlarını deyirlər.

2023-cü ilin noyabrından başlayaraq Azərbaycanda qruplar halında 30 nəfərdən artıq jurnalist və ictimai fəal qaçaqmalçılıq ittihamı ilə həbs edilib.

Yerli hüquq-müdafiə təşkilatlarının hazırladıqları siyahılara görə, hazırda Azərbaycan həbsxanalarında 328 nəfər siyasi məhbus var.

Rəsmilər isə ölkədə heç kimin sırf peşə fəaliyyətinə görə, siyasi motivlərlə həbs olunmadığını iddia edirlər. Onlar deyir ki, həmin siyahılarda yer alanlar sərf törətdikləri əmələ görə məsuliyyətə cəlb olunublar.


## Buna da bax:

'Ədalətin dəfnindəyik...' – ToplumTV işində 9 nəfərə 121 il həbs kəsildi

'MeydanTV işi' üzrə məhkəmədə həbsdəki jurnalistlərin aksiyası: 'Sözə qandal vurulmur!'

MeydanTV işi: 'Əliyevin işi düşəndə jurnalistləri başına yığır...'


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur